9 oktyabr 2013-cü ilə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimovun qeydə alınmış prezidentliyə namizəd Cəmil Həsənlinin səlahiyyətli nümayəndəsi Gülağa Aslanlıdan Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 27 sentyabr 2013-cü il

Mən, ekspert qrupunun üzvü Ramiz İbrahimov 2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində qeydə alınmış namizəd Cəmil Həsənlinin səlahiyyətli nümayəndəsi Gülağa Aslanlının 27 sentyabr 2013-cü il tarixli 10 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydalara haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası nəzdində yaradılmış ekspert qrupunun üzvü kimi tərəfimdən araşdırmaya qəbul edilmişdir.

2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində qeydə alınmış namizəd Cəmil Həsənlinin səlahiyyətli nümayəndəsi Gülağa Aslanlı 2013-cü il sentyabrın 27-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək 1-31 avqust 2013-cü il tarixlərində respublikada fəaliyyət göstərən dövlət və özəl telekanalların monitorinqinin keçirilməsi zamanı təşviqatla bağlı Seçki Məcəlləsinin tələblərinin pozulduğunu bildirib müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipi əsas götürülərək, ərizəçinin müraciəti tərəfimdən qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Araşdırma nəticəsində müəyyən edilmişdir ki, müraciət müddət ötürülməsi ilə verilmişdir. Belə ki, Seçki Məcəlləsinin 112.1-ci maddəsinə görə, seçicilər, namizədlər, qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları, referendum üzrə təşviqat qrupları qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının, referendum üzrə təşviqat qruplarının vəkil edilmiş şəxsləri, müşahidəçilər, habelə seçki komissiyaları vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilərlər.

Həmin Məcəllənin 112-1.5.3-cü maddəsinin tələbinə görə, şikayət bu Məcəllə ilə müəyyən edilmiş qaydaların pozulması ilə daxil olmuşdursa, şikayətin onu təqdim edən şəxsə geri göndərilməsinə dair rəy verilməlidir.

Seçki Məcəlləsinin 112-1.14-cü maddəsində göstərilir ki, ekspert qrupunun üzvü rəy çıxararkən aşağıdakıları rəhbər tutmalıdır:

112-1.14.1- Şikayət qanunla müəyyən edilmiş qaydada və müddətdə, yəni qərardan, hərəkətin (hərəkətsizliyin) baş verməsindən və ya maraqlı tərəfin xəbərdar olmasından sonra 3 gün ərzində daxil olmalıdır.

Göstərilənlərə əsasən müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərinin pozulması ilə göndərildiyindən müraciət edən şəxsə geri qaytarılmalıdır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci və "Azərbaycan Respublikası Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində qeydə alınmış namizəd Cəmil Həsənlinin səlahiyyətli nümayəndəsi Gülağa Aslanlının 27 sentyabr 2013-cü il tarixli 10 saylı müraciəti Azərbaycan Respublikasının Seçki Məcəlləsində nəzərdə tutulmuş şikayətvermə müddətinin ötürülməsi ilə daxil olduğundan ərizəçiyə geri qaytarılsın.
2. Rəy verildikdən sonra növbəti 18 saatdan gec olmayaraq dərc olunsun (internet səhifəsində yerləşdirilsin) və müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Ramiz İbrahimov